# Üç qəhrəmanın dastanı



**"Kəmərləri bağlayın, hər şey yaxşı olacaq". Günlərdir bu cümlələrin təsiri ilə yaşayırıq. Hisslərimiz bir-birinə qarışıb. Qüssə, kədərə bürünsək də, qürur və cəsarət hissi hər şeyi üstələyir. Biz ən çətin məqamda belə kimliyimizi, nəyə qadir olduğumuzu göstərə bilirik. Ümiddən ümid, çarəsizlikdən çarə, mümkünsüzlükdən mümkün olanı bacarırıq. Hər çıxılmaz vəziyyətə yol axtarır, son ana kimi mübarizə aparırıq. Bəli, budur, azərbaycançılıq, milli heysiyyət, qürur və qətiyyət. O gün də bütün bunların şahidi olduq.**

Nurlu səhərdə üzü mavi səmalara yol alan təyyarədə gedənlər bilməzdilər ki, son aldıqları biletin ünvanı ölüm olacaq. Dəqiqələr sonra hücuma məruz qalan və ölümə məhkum edilən insanların son ümidi hava gəmisini idarə edən pilotlara, bir də "hər şey yaxşı olacaq" deyən zərif Azərbaycan qızı Hökuməyə idi. O, ölümə getdiklərini, cəmi dəqiqələr sonra hər şeyin məhv olacağını bildiyi halda yenə də insanları səbirli olmağa, təlimatlara uyğun hərəkət etməyə çağırdı. Son ümidi, inamı itirmədi. Çünki bu dəqiqələri ondan yaxşı anlayan, duyan olmayacaqdı.

1991-ci ildə Kəlbəcərdə doğulan Hökumə Əliyeva hələ körpə yaşlarında erməni terrorundan canını qurtarmış, didərgin həyatı yaşamışdı. Bu hadisədə onun əməli göyləri, səsi isə yeri titrətdi. Yaxınlarının dediklərinə görə xaraktercə sakit imiş Hökumə, amma həmin gün bütün dünyaya səs saldı. Son ana kimi işini, peşəsini ləyaqətlə, vicdanla və dəqiqliklə yerinə yetirdi. Hökumə yaxşı bilirdi ki, belə vəziyyətlərdə soyuqqanlı olmaq və hisslərə qapılmamaq lazımdır. 33 yaşlı stüardessa Hökumə Əliyevanın səsini dinlədikcə kövrəlməmək imkansızdır. Ölümə addımladığını bilə-bilə, hətta bu məqamda belə xidməti vəzifəsini təmkinlə, səbirlə yerinə yetirdi. Deyilənə görə, səmanı çox sevirmiş göylər qızı.

Həmin günü də son sözünü yalnız sərnişinlərə demədi, həm də bizlərə ünvanladı. Ölümdən ölümsüzlük doğdu o gün Hökumənin timsalında. Bir Azərbaycan qızı yerdəki xəyanətlərin göydə cavabını verdi. Axı o da təlimata uyğun hərəkət edirdi. Təyyarənin pilotları İqor Kşnyakin və Aleksandr Kalyaninov təyyarəni qəzalı vəziyyətdə dəqiqələrlə qorumağı bacardı. Bütün mümkün variantlardan, eniş zolaqlarından istifadəni yoxladılar. Eniş üçün yerdə kömək umduqlarının heç biri yardım etmədiyi halda nicatı göydə aradılar. Tarix yazan qəhrəman pilotların peşə bacarığı bütün dünyaya örnək, nümunə oldu. Təyyarəni idarə edən pilotları və şəxsi heyəti yalnız göyərtəsində olan insanların taleyi maraqlandırdı. Axı bu insanlar onlara inanırdı. Təəssüflər olsun ki, göyərtədə olan insanların hamısını xilas etmək mümkün olmadı. Bütün cəhdlərə baxmayaraq, təyyarədə olan 67 sərnişindən 38-i faciəli şəkildə həyatını itirdi. Hər iki pilot və stüardessa Hökumə Əliyeva da həlak olanlar içərisində idi.

Təyyarə qəzası nəticəsində baş verən faciənin ağırlığı ilə yanaşı, xalqın iradəsi və əzminin də şahidi olduq. Günahsız insanların bir anın içində ölümə məhkum edilməsi, 13 yaşında Məhəmmədəli Yeqanovun körpə qəlbində keçirdiyi hissi, həyəcanı, həmin dəqiqələrdə sığına biləcəyi yaxınının yanında olmaması faciənin ağırlığından xəbər verir. Dünyada ədalət var, bunu Azərbaycan Prezidenti İlham Əliyev də dəfələrlə çıxışlarında bildirib. Bu hadisə zamanı sinəmizdəki yara bizi incitsə də, haqqımız olan ədaləti tələb edik. Əlbəttə ki, XXI əsrdə yaşayırıq, hər an texnoloji yenilik yaranır. Artıq insanlar, cəmiyyət üçün nəyisə gizli saxlamaq mümkün deyil. Dünyanın bir başında olan hadisə digər tərəfində sürətlə yayılır. İnformasiya əsrində yaşayırıq. Elə Bakı-Qroznı təyyarəsinin vurulması və faciə nəticəsində onlarla insanın göz görə-görə ölümə məhkum edilməsi, bir o qədər də insanın yaralanması anında dünyanın diqqət mərkəzində oldu. Bu hadisə bəzi ölkələrə yeni müzakirə mövzusu olsa da, Azərbaycan dövləti xalqı ilə bərabər nə müvazinətini itirdi, nə də mübarizəsindən geri çəkildi. Bir xalqın, millətin və dövlətin iradəsini, gücünü sübuta yetirdi. Dünya şahid oldu ki, biz haqq işimizdə sonuna kimi mücadilə edirik. Azərbaycan dövləti öz vətəndaşının hüquqları uğrunda prinsipiallılığını qoruyur və beynəlxalq hüququn tələbləri çərçivəsində hərəkət edir. Bütün bunlardan qaynaqlanaraq Azərbaycanda bütün dövrlərdə milli birlik və həmrəylik nümunəsi öz sözünü deyib.









Vətənə gətirilən qəhrəman Hökumə Əliyevanın, pilotların və hadisə qurbanlarının cənazələri xalq tərəfindən böyük ehtiramla qarşılandı. Vida mərasimində iştirak edən ölkə başçısı və birinci xanım Mehriban Əliyeva faciə qurbanlarının ailələrinin və yaxınlarının dərdinə şərik oldu. İkinci Fəxri Xiyabanda dəfn olunan hər üç qəhrəman - Kşnyakin İqor İvanoviç, Kalyaninov Aleksandr Georgiyeviç və Əliyeva Hökumə Cəlil qızı ölümündən sonra Prezident İlham Əliyev tərəfindən Milli Qəhrəman adına layiq görüldü. Əsədov Zülfiqar Sərdar oğlu, Rəhimli Aydan Vaqif qızı isə 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif olundular.

Bəli, yola saldığımız ilin axırıncı günlərini qüssə-kədərə bürünsək də Azərbaycanın qəlbindən bir atəş alovlandı. Millətin mübariz ruhu, dövlətin qətiyyəti və siyasi mövqeyi öz sözünü dedi. Yerdəki məğlubiyyətləri ilə barışa bilməyənlər, göyləri xəlvət bilib, çirkin niyyətlərini orada həyata keçirmək istədilər. Fikirləşdilər ki, səmadakı gizlinləri ört-basdır etməyə dənizi də şərik qoşa bilərlər. Unutdular ki, Xəzərin bəhrələndiyi və mərkəzi "damarlarının" birləşdiyi məkan Azərbaycandır. Dəniz də bu xalqa, millətə xəyanət edə bilməzdi. Buludlara üz tutan dəmir şahinin pilotları isə bütün hücumlara qarşı hünər, qəhrəmanlıq nümayiş etdirdilər. Həmin gün onların göylərə meydan oxuması bütün dünyanı heyrətə gətirdi. Nəhəng dövlətlərlə müqayisədə coğrafi baxımdan nisbətən kiçik olan dövlətimiz igid oğulları ilə göylərə qəhrəmanlıq möhürlədi. Üç qəhrəmanın dastanı yazıldı həmin gün. Vətən bizim hər birimizin məsləyi, əqidəsi, amalı və düşüncəsidir. Bu mənada, vətən bizdən başlayır. Məndən, səndən, ondan və bizdən. Doğulduğumuz ev, böyüdüyümüz məkan, yaşadığımız şəhər, kənd, yer, göy hamısı vətəndir.

İşıqlı səhərdə xoşbəxt bir şəhərdən yola düşən sadə vətəndaşlar qəhrəman kimi vətənə döndülər. Göylər də yas tutdu sanki həmin gün. Bakı göz yaşlarını yağışa, çiskinə çevirib övladlarını son mənzilə yola saldı. Üzüldük, ağladıq, amma qürurumuz, mətanətimiz və milli heysiyyətimiz ucalarda bərqərar oldu. Bu xalq ən ağır, çətin günündə bütün gücünü birləşdirib daha böyük qüvvəyə sahib olaraq sanki yenidən zühur edir. "El gücü-sel gücü", - deyib atalar. Bizi millət kimi birləşdirən həmrəyliyimizdir. Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində yenə də öz birliyimizi təsdiq etdik. Vətən sağ olsun!

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**